Ordu və cəmiyyət

# "Əsgərlərimizə yaradılan şərait bizi də çox sevindirir"

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirildi.*



Qardaşım oğlu Namiq Bağırov Gəncədə yerləşən "N" hərbi hissəsində xidmət edir. Hərbi hissədə əsgərlərimizə yaradılan gözəl şərait bizi də çox sevindirir. Bu sevinci "Açıq qapı" günündə də yaşadıq. Hərbi hissənin əsgər yataqxanası, yeməkxanası - hər yer gözəldi. Məişət otaqlarına, tibb məntəqəsinə baş çəkdik. Ali Baş Komandanımız İlham Əliyev çıxışlarında Azərbaycan əsgərinin vətənpərvərliyini, qəhrəmanlığını xüsusi vurğulayır. Torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətindəyik. O gün tezliklə gələcək.

**Malik BAĞIROV,**
**Bakı şəhəri**

Əsgər Eltac Babayevi və əsgər yoldaşlarını ziyarət etməyə gəlmişəm. Bu il "Açıq qapı" gününün keçiriləcəyindən xəbərimiz var idi. Əsgərlərimiz ən müasir orduda xidmət edirlər. Ordumuzun gücü dövlət rəhbərimizin qayğısı nəticəsində gündən-günə artır. Mən bir neçə il bundan əvvəl Hərbi Dəniz Qüvvələrində xidmət etmişəm. Vətənimizə, xalqımıza sədaqətlə, vicdanla xidmət etmək hər bir əsgərin borcudur. Onların hərbi anda sadiq qalacaqlarına, xidmətlərini ayıq-sayıq aparacaqlarına, komandirlərinin verdiyi tapşırıqları vaxtında yerinə yetirəcəklərinə inanıram.

**Vüsal İSMAYILOV,**
**Ağcabədi rayonu,**
**Hindarx kəndi**



Hacıqabul rayonunun Meynaman kəndində anadan olmuşam. Musiqi təhsilim



var. Xalq mahnılarımızı, muğamlarımızı daha çox sevirəm. Hərbi xidmətə gəlməmiş muğam müsabiqələrinin iştirakçısı olmuşam. Müəllimlərim Azərbaycanın xalq artistləri Alim Qasımov, Zabit Nəbizadə olublar. Hərbi xidmətimi başa vurduqdan sonra musiqi təhsilimi davam etdirəcəyəm. Hərbi hissəmizdə keçirilən Novruz şənliklərində, Yeni il, Ramazan və Qurban bayramlarında, "Açıq qapı" günlərində şəxsi heyət qarşısında çıxışlar edirəm. Onlar oxuduğum hər mahnını alqışlayırlar. Ən böyük arzum musiqi beşiyimiz Şuşada qələbə bayramında hərbçilərimiz qarşısında oxumaqdır.

**Əsgər**
**Pünhan PİRİYEV,**
**Gəncə şəhəri**